# CƏNNƏT GÖRMƏK İSTƏYƏN...



**Son vaxtlar ölkəmizdə turizmin inkişafı, kurort və sanatoriya şəbəkələrinin genişləndirilməsi istiqamətində mühüm işlər görülür, möhtəşəm layihələr gerçəkləşdirilir.**

Bu sırada Masallıda aparılan işlər xüsusi razılıq doğurur. İndi bu bölgədə fəaliyyət göstərən müalicə və istirahət obyektlərinin sayı kimi keyfiyyət göstəriciləri də yüksələn xətt üzrə inkişaf edir.

Etiraf etmək lazımdır ki, həmin müəssisələr arasında İstisu Fatmeyi-Zəhra Şəfa Sanatoriyası işini daha mükəmməl qurmuşdur. Müalicə ocağı ilə tanış olarkən bunu bir daha yəqin etdik.

- Respublikamız təbii sərvətləri, məşhur müalicəvi suları ilə diqqət çəkən çox zəngin bir ölkədir, - deyə sanatoriyanın rəhbəri bizimlə fikirlərini bölüşür. Təsadüfi deyildir ki, ildən-ilə Azərbaycana təşrif gətirən turistlərin sayı artır. Buraya gələnlər yalnız istirahət etmir, gəzməli-görməli yerləri dolaşmır, həm də müalicə olunur, şəfa taparaq vətənlərinə gülərüz qayıdırlar.

Fərəh hissilə qeyd etməliyik ki, başqa bölgələrimiz kimi Masallıda da son illər turizmin inkişafına, müalicə ocaqlarının şəbəkəsinin genişləndirilməsinə xüsusi fikir verilir, dövlət səviyyəsində bu vacib məsələyə lazımi qayğı göstərilir.

Təvazökarlıqdan uzaq olsa da qeyd edim ki, bu



sırada İstisu Fatimeyi Zəhra Şəfa sanatoriyasının özünəməxsus yeri var. İstisu Masallı şəhərindən 13 kilometr aralıda, Talış dağlarının qoynunda, dəniz səviyyəsindən 1650 m yüksəklikdə olan Dəmbalov dağının döşündə, Viləş çayının sahilində çıxır.

***- Bu möcüzəli şəfa ocağının yaranması, ilk istifadəçiləri barədə nə deyə bilərsiniz?!***

- Etiraf edək ki, onun yaranma tarixini dəqiq bilən yoxdur. Təbii ki, zaman-zaman bu sudan istifadə edən, şəfa taparaq ona yaradanın möcüzəsi tək baxan, qiymət verən çox olub. Amma tarixini araşdırmaq baxımından hələ ki, ortada tutarlı bir söz söyləyən, elmi dəlillər göstərən yoxdur.

Ulu əcdadlarımızın min bir dərdin dərmanı kimi baxıb istifadə etdikləri bu suyun tərkibində hidrogen, sulfit, natrixlor, kalsi, maqnezium hidro-karbonat və hər litrində 30 milliqram yod vardır.

Maraqlıdır ki, bu su yerin 90-250 kilometrlik dərinliyindən, 60 dərəcədən artıq isti halında çıxır. Möcüzəli xarakteri odur ki, xəstəlikləri iynəsiz, dərmansız aradan qaldırır.

***- Hər halda yəqin ki, bu incəliklərə varan, onları üzə çıxaran olub. Əks təqdirdə bu məlumat harandandır?***

- Tamamilə düz buyurursunuz. Bütün bunları 1960-cı illərin əvvəllərində, yəni, minillər ərzində istifadədən sonra məşhur həkim, alim, musiqiçi, şair, bəstəkar Mir Kazım Aslanlı - Sarəng elmi yollarla sübut edib. Alimin fikrincə İsti sunun köməyi ilə aşağıdakı xəstəlikləri müalicə etmək mümkündür:

- **Revmatizim və onun doğurduğu fəsadlar** (artrit, poliartrit, oynaq ağrıları, artirozlar və s.)...
- **Dəri xəstəlikləri** (pisarioz, germatitlər, neyrodermitlər, göbələk xəstəlikləri, ekzema)...
- **Böyrək və sidik yolları xəstəlikləri** (pielit, uretrit, pilonefrit, piolostrit)...
- **Radikulitlər...**
- **Prostatlar...**
- **Hipertoniya** (qan təzyiqi)**...**
- **Qara ciyər və öd yolları xəstəlikləri...**
- **Qadın xəstəlikləri** (metrit, ekzometrit, soloninqastrit, uşaqlıq boyunun erroziyası, herbisit)**...**
- **Qadın və kişi sonsuzluğu...**
- **Mədə-bağırsaq xəstəlikləri** (qastrit, ezozoqit, kolit, bağırsağın defekasiyası)**...**
- **Travmatik zədələnmələr və s.**



1971- ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə təkidi ilə İstisu Ümumittifaq müalicəvi kurortlar sırasına daxil edilib. Ölkədə kurort və sanatoriya Şəbəkəsinin genişləndirilməsinə diqqət artırılıb.

1998-ci ildə sanatoriya məşhur iş adamı, "İldırım" firmasının prezidenti Hacı İldırım Allahyarov və Qardaşalı Allahyarov tərəfindən özəlləşdirilib. Elə o vaxtdan böyük bərpa işləri, quruculuq tədbirləri görülməyə başlanıb.

İldırım Allahyarov gerçəkləşdirilən layihələrlə bağlı fikirlərini bölüşərkən fərəhini gizlədə bilmir:

- Burada Yanardağ var, Yardımlı şəlaləsi var, Viləş dəryacısı var. Masallı bir tərəfdən dağlara söykənib, o biri tərəfdən Xəzər dənizinə. Buranın əsrarəngiz gözəlliyi nəyə desən dəyər. Xoşbəxtəm ki, mən bu sanatoriyanı respublikanın çiçəklənməsində, inkişafında, dünyada tanıdılmasında müstəsna rolu olan dahi lider Heydər Əli-







yevin dövründə özəlləşdirmişəm. Xüsusi fərəhlə bildirməliyəm ki, eyni qayğı və diqqəti bu gün biz ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevdən də görürük.

Müəssisəmiz regionların inkişaf proqramına daxil edilib. Quruculuq və yenidənqurma işləri aparmaq üçün 100 min manat məbləğində kredit götürmüşük. Bütün bunlar məqsədimizə nail olmaqda münbit zəmin yaradıb.

Bu gün inamla söyləyə bilərik ki, burada gözəl şərait yaradılmışdır. Müalicələr həkimlərin xüsusi göstərişi ilə aparılır. İstifadəmizdə 160 yerlik mehmanxana və s. sosial obyektlər var. Burada dincələnlər Viləş çayındakı çimərlikdən, dəryaçada gəmi, habelə at və dəvə ilə gəzintidən, eləcə də qonşu Yardımlı, Lənkəran, Astara və Lerik rayonlarının görkəmli yerlərinə turist marşurutlarından istifadə edirlər.

Burada təbii bulaqlar çoxdur. Böyrək, mədə və digər sulardan şəfa tapanlar evlərinə gümrah halda qayıdırlar.

Məhz ona görə də sanatoriyamıza bir dəfə gələn buranı yaddan çıxarmır, təkrar-təkrar bu cənnəti xatırladan məkana qayıdırlar. Qayıdırlar ki, bu gözəllikləri bir daha görsünlər, müalicə olunsunlar, istirahət etsinlər, şəfa tapsınlar.

**Söhbətimin sonunda mötərəm nazirimiz Əbülfəs Qarayevə, hörmətli icra başçımız Qəzənfər Ağayevə dərin təşəkkür və minnətdarlığımı bildirmək istərdim. Bugünki əlverişli şərait, sanatoriyalarımızın inkişafı üçün onların diqqət və qayğısına borcluyuq. Bütün bunlar bizi fərəhləndirir, işimizə daha məsuliyyətlə yanaşmağa şövq edir…**

● **Tural**

